*İlham İnam*

# Cocuq Mərcanlıya qayıdır köçüm

Yoxdur  sevincimin həddi-hüdudu,
Qaçqınlıq adını adımdan silin.
Necə də şirindir doğmalıq adı,
Bizi bu dünyanın xoşbəxti bilin.
Cocuq Mərcanlıya qayıdır köçüm.

Bir baxın, varlığın başqa haldadır,
Torpağı gözümə elə təpəcəm.
İllərdir o elin gözü yoldadır,
Ağacı öpəcəm, daşı öpəcəm.
Cocuq Mərcanlıya qayıdır köçüm.

Küsmüş məzarlarla barışacağam,
Ruhlar da özünü həlak edəcək.
Bir dünya sevincə  qarışacağam,
Kədər ilim-ilim  itib gedəcək,
Cocuq Mərcanlıya qayıdır köçüm.

Divar tanıyarmı, yadırğamayıb,
Babamın köhnəlmiş tüfəngini də.
Deyirəm unutmam, burda qoymayın
Nənəmin mis rəngli səhəngini də,
Cocuq Mərcanlıya qayıdır köçüm.

Uşaqlar dağ ilə dərə görəcək,
Həyətdə, qapıda salacaq şuluq.
Ordum qələbədən müjdə verəcək,
Böyük qayıdışın qaranquşuyuq,
Cocuq Mərcanlıya qayıdır köçüm.

Azərbaycan ordusu.-2019.-23 noyabr.-S.8.